2018-ci ilin yanvar-oktyabr aylarında muxtar respublikada bütün maliyyə mənbələri hesabına əsas kapitala 840 milyon 725 min manat vəsait yönəldilmişdir ki, bu da bir il öncəki göstəricidən 1,4 faiz çoxdur. Tikinti-quraşdırma işlərinə qoyulan vəsait əvvəlki ilin müvafiq dövrünə nisbətən 2,1 faiz artaraq 775 milyon 690 min manat olmuşdur ki, bu da əsas kapitala yönəldilmiş vəsaitin 92,3 faizini təşkil edir.

2018-ci ilin yanvar-sentyabr aylarında muxtar respublikada tikinti sahəsində 13271 nəfər işçi çalışmışdır ki, bu da 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 2,3 faiz çoxdur. Tikinti sahəsində bir işçiyə hesablanmış orta aylıq nominal əməkhaqqı 2017-ci ilin müvafiq dövrünə nisbətən 3,1 faiz artaraq 489,2 manat olmuşdur.